Hörmətli həmkarlar,

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 08/04/2020-ci il tarixli 1/11 N-li “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran vəzifələrin həllinə dair” sərəncamına əsasən, müasir şəraitdə ölkədə müstəqil auditin qarşısında duran problemlərin müəyyənləşdirilməsi, bu problemlərin operativ və səmərəli həll edilməsi üzrə yeni dövrün çağırışlarına uyğun tövsiyələrin işlənib hazırlanması, Auditorlar Palatasının üzvlərinə əməli köməkliyin göstərilməsi məqsədi ilə fikirlərimi bildirirəm.

Nazirlər Kabineti yanında Operativ qərargahın koronavirus infeksiyası (COVİD-19) ilə əlaqədar verilən qərarlarına əsasən ölkə ərazisində iqtisadiyyatın bəzi sahələrində fəaliyyət göstərən dövlət və özəl müəssisələrin fəaliyyəti karantin dövrü müddətində məhdudiyyət qoyulmuşdur. Auditor fəaliyyətidə məhdudiyyət qoyulan fəaliyyətlərə aid edilmişdir. Fəaliyyətlərinə məhdudiyyət qoyulmayan müəssisələr icaze.e-gov.az elektron portalında qeydiyyatdan keçərək fəaliyətlərini davam etdirirlər.

Nəzərə alsaq ki, auditorların xidmət göstərdiyi bəzi Sifarişçi-təsərrüfat subyektləri də fəaliyyət göstərirlər, auditorlarda fəaliyyət göstərməyə məcburdurlar. Lakin auditorların fəaliyyətləri məhdudlaşdırıldığından xidmətlərini lazımi səviyyədə göstərə bilmirlər.

Düzdür yuxarıda qeyd edilən portalın vaxtın az olmağındanmı və ya başqa səbəbdənmi mükəmməl hazırlanmadığından auditorlar da qeydiyyatdan keçə bilərlər, lakin bu qanunsuz hesab edilə bilər və buda auditorlara baş ucalığı gətirməz. Odur ki, karantinin daha uzun müddətə uzadıla bilinməsini nəzərə alaraq Palata adından Qərargaha bu barədə əsaslandırıcı məktubla muraciət edərək auditorların da fəaliyyətini məhdudlaşdırılmayan fəaliyyətlərə aid edilməsini **tələb** etmək lazımdır.

Hörmətlə,

Sərbəst auditor Vəli Kərimov